Cəsarətli planlar, strateji gedişlər -

Amerika liderinin yeni çağırışları

20 yanvar 2025-ci il, Vaşinqton. Kapitoli binasının nəhəng sütunları arasında minlərlə insanın gözləri qarşısında Donald Tramp ikinci dəfə ABŞ prezidenti kimi and içdi. O, yalnız qalmaqallarla gündəmə gələn siyasətçi deyil, həm də cəsarətli gedişləri ilə heyranlıq doğuran liderdir. Trampın adı çəkiləndə insanlar onu fərqli adlarla yad edir: "yenilikçi biznesmen", "populist tribun", "sözünü əsirgəməyən siyasətçi". Bir şey isə dəqiqdir. Donald Tramp həmişə diqqətləri öz üzərinə çəkən və yeni cığır açan liderdir. O, həm tərəfdarlarını, həm də rəqiblərini təəccübləndirməyi bacarır. Sevənləri üçün Tramp Amerikanın özünü yenidən kəşf etməsinin simvoludur. Onun hər çıxışı enerji ilə doludur. Sanki hər kəlməsi milyonların şüurunda əks-səda yaradır. Rəqibləri isə onu "ənənələri darmadağın edən", "qeyri-müəyyənliyi normallaşdıran" lider kimi təsvir edirlər. Çünki o, siyasətdə qızıl qaydalar deyil, qızıl nəticələr istəyən siyasətçidir. O, nəticələri proqnozlaşdırmaq üçün deyil, onları dəyişmək üçün hərəkət edir. Bu səbəbdən onu "qarşısıalınmaz lider" adlandıranlar da az deyil. Hər dəfə çıxış edərkən və ya qərar verərkən sanki özünü bütün dünyanın diqqət mərkəzində bir şahmat taxtasında görür. Amma o, bu oyunun yalnız oyunçusu deyil, həm də qaydalarını yazan şəxsdir.

İnaqurasiya mərasimində səhnəyə çıxan Donald Trampın bədən dili çox şey deyirdi. İnamlı addımlarla tribunaya yaxınlaşdı, üzündə tanış ifadə vardı - qərarlı, sərt, amma arxa planda bir az ironiya dolu bir təbəssüm. Avraam Linkolnun 1861-ci ildə andiçmə zamanı götürdüyü İncildən, eyni zamanda 2017-ci ildə and içdiyi öz şəxsi İncilindən də istifadə etdi. İnaqurasiya mərasimindən cəmi bir neçə saat sonra isə Tramp yeni qərarlar imzalamağa başladı. Bu, onun hər zaman mövcud olan "ilk addımın üstünlüyü" strategiyasının növbəti nümayişi idi. Hərəkətləri ilə "Mən buradayam və heç vaxt dayanmıram" deyirdi sanki o…

Donald Tramp prezidentliyinin ilk günündə ABŞ-ın hərbi gücünü artırmaq məqsədilə müdafiə büdcəsi barədə qərar imzaladı. Bu sənədin imzalanması onun milli təhlükəsizlik məsələlərinə verdiyi önəmi göstərir. Trampın bu addımı onun ikinci prezidentlik dövründə daha çox hərbi güc və dünya düzəninə müdaxilə siyasətini gücləndirəcəyini də işarə edir. Trampın imzaladığı qərarlardan biri də məşhur iş adamı və texnologiya sahəsində inqilab edən İlon Maskı nazir vəzifəsinə təyin etmək oldu. Ağ Evin yeni sahibi hökumətin səmərəliliyinin artırılması üzrə qurumun yaradılması barədə qərar verdi. Ardınca da Maskı sözügedən nazirliyə rəhbər təyin etdi. Bu qərar Donald Trampın iqtisadiyyatın inkişafı üçün texnoloji tərəqqiyə verdiyi əhəmiyyəti vurğulayır. Həm də 47-ci ABŞ prezidentinin hadisələrə müasir və innovativ yanaşmasını göstərir. Maskın təyinatı, həmçinin ABŞ-da texnoloji yeniliklərə daha çox investisiya qoyulması, elmi tədqiqatların və yeni iş yerlərinin açılmasına şərait yarada bilər. İlk prezidentliyi dövründə Paris İqlim Sazişini tərk edən Tramp bu qərarı yenidən təkrarlayaraq iqlim dəyişmələrinə qarşı mübarizənin iqtisadiyyat üzərində yaratdığı təsiri minimuma endirməyə çalışdı. O, ölkənin enerji sektorunu qorumaq və daxili istehsalı stimullaşdırmaq məqsədilə bu addımı atdı. Bu, həm də onun sərt iqtisadi siyasətinin davamıdır. Tramp ABŞ-ın Ümumdünya Səhiyyə Təşkilatından çıxma qərarını da imzalayaraq ölkənin qlobal səhiyyə siyasətindəki mövqeyini dəyişdirdi. Bu addım onun qlobal təşkilatlarla münasibətlərdə daha müstəqil bir yanaşma sərgilədiyini göstərir. Bundan başqa, ABŞ-ın 47-ci prezidenti kimi and içərək vəzifəsinin icrasına başlayan Donald Tramp ölkə ərazisini genişləndirəcəyini və Marsa bayraq sancacağını da deyib. Onun bu çıxışı isə ABŞ-ın daha böyük və iddialı hədəflərini üçün göstərən yanaşma tərzidir. Mars kimi qeyri-adi və uzaq məqsədləri Amerika xalqını öz gücünə inandırmaq və onu yeni dövrə hazırlamaq üçün verilmiş simvolik mesaj hesab etmək olar. Donald Tramp andiçmə mərasimindəki çıxışında LGBT-ni qəbul etmədiyini də açıq-aşkar bəyan edib, bildirib ki, Amerika qanunvericiliyinə əsasən, yalnız iki cinsiyyət mövcuddur - kişi və qadın: "Biz dəri rənginə görə ayrıseçkilik etməyən və yalnız insanın ləyaqətinə əsaslanan bir cəmiyyət yaradacağıq". Trampın bu çağırışı ənənəvi Amerika dəyərlərinə qayıdış kimi görünür. O, ənənəvi ailə modelini dəstəkləyərək cəmiyyətin mədəniyyət və mənəviyyat məsələlərinə diqqət çəkməyə çalışır. 47-ci ABŞ prezidentinin bu yanaşması isə Azərbaycanın ailə institutunu qorumaq ideologiyası ilə yaxınlıq təşkil edir. Hər iki tərəf milli dəyərlər və ənənələrə əsaslanan siyasəti ön plana çıxarır.

Növbəti mərhələdə isə Tramp sələfi Co Bayden hökuməti tərəfindən qəbul olunan 80-ə yaxın qərarı ləğv edəcək. 47-ci ABŞ prezidenti ölkəyə qeyri-legitim miqrantların girişini məhdudlaşdırmaq və sərhəd təhlükəsizliyini artırmaq məqsədilə yeni immiqrasiya qanununu da imzalaya bilər. Lakin bu qanun yalnız yüksək bacarıqlı işçilərin və sərmayəçilərin ölkəyə daxil olmasına icazə verən şərtləri əhatə edəcək. Onun bu siyasəti isə ABŞ-ın daxili iş bazarını qorumağa yönəlib. Bu, ölkə daxilində sosial və humanitar gərginliklərə səbəb ola bilər. Çünki immiqrantlara qarşı sərt siyasət Trampın tərəfdarları tərəfindən dəstəklənsə də, bəzi hüquq müdafiə təşkilatları və mədəniyyət mütəxəssisləri tərəfindən kəskin şəkildə tənqid edilir. Bundan başqa, Tramp Avropa İttifaqı ilə ticari və iqtisadi əlaqələrdə daha sərt yanaşmanın təmin edilməsini qarşısına məqsəd qoyacaq. Bu, daha az multimilli təşkilatlar və daha çox ikitərəfli ticarət sazişləri deməkdir. Yəni qarşıdakı 4 il ərzində "qoca qitə"yə qarşı təcridçi yanaşma aktual ola bilər.

Paralel olaraq son dövrlərin ən çox müzakirə olunan mövzusu Qrenlandiyadır desək, yanılmarıq. Ağ Evin yeni sahibinin Qrenlandiya ilə əlaqələri ilk prezidentlik dövründəki addımlarına bənzər ola bilər. 2019-cu ildə Trampın Qrenlandiyanı almağı planlaşdırması dünyada böyük mübahisələrə səbəb olmuşdu. Bu ideya xüsusilə Danimarka tərəfindən sərt şəkildə rədd edilmişdi. Lakin ikinci hakimiyyət dövründə Şimal dənizi bölgəsinin geosiyasi əhəmiyyətinin artması ilə Qrenlandiya və Arktik regiona olan maraq daha da güclənə bilər. Həmçinin Qrenlandiyanın ABŞ üçün təbii resurslar və geopolitik mövqe baxımından potensial dəyəri böyükdür və Tramp bu bölgəyə investisiyaları artırmaq məqsədilə Danimarka ilə münasibətləri yenidən nəzərdən keçirə bilər. 47-ci prezidentinin dövründə ABŞ-ın xarici siyasətində Çin və Rusiyanın əhəmiyyəti böyük olacaq. Pekinlə olan ticarət müharibəsinin və Moskva ilə gərgin əlaqələrin davam etməsi gözlənilir. ABŞ-ın yeni iqtisadi strategiyası, həmçinin Asiya və Avrasiya bölgəsindəki təsirini artırmağa da yönələcək. Bunların fonunda Tramp "Öncə Amerika" siyasətini daha da irəlilədə bilər. Bu yanaşma ABŞ-ın dünya siyasətindəki təsirini gücləndirmək, lakin eyni zamanda qlobal təşkilatlara və razılaşmalara olan bağlılığını azaldaraq daha çox ikitərəfli anlaşmalar əldə etməyə yönəlmək məqsədi daşıyır. Bir sözlə, Donald Trampın ikinci administrasiyası dövründə ölkənin dünya siyasətindəki mövqeyi həm daxili, həm də xarici təsirlərdən asılı olacaq, amma onun sərt və müstəqil yanaşmaları davam edəcək.

Donald Trampın ikinci prezidentlik dövrü ABŞ-ın dünya siyasətindəki mövqeyi və maraqlarına əsaslanaraq Cənubi Qafqaz regionunda da yeni dinamikanın meydana gələcəyini göstərir. Bölgə Vaşinqton üçün strateji əhəmiyyətə malikdir. Çünki Cənubi Qafqaz Şərq və Qərb arasında enerji marşrutlarının kəsişmə nöqtəsində yerləşir və Rusiya, İran, Çin kimi qlobal oyunçularla sərhəd paylaşır. Paralel olaraq Azərbaycan qazı və nefti ABŞ üçün alternativ enerji mənbəyi təşkil edir. Xüsusilə Cənub Qaz Dəhlizi layihəsi ABŞ-ın Avropanın enerji asılılığını azaltmaq strategiyasına töhfə verir. Ağ Evin yeni sahibinin də enerji siyasətinə diqqət yetirəcəyi gözlənilir. Çünki ABŞ-ın enerji müstəqilliyini qorumaq və Avropanın Rusiya qazından asılılığını azaltmaq siyasəti onun ilk prezidentlik dövründə də prioritet olmuşdu. Bu kontekstdə Azərbaycanla əməkdaşlıq gücləndirilə bilər. Rəsmi Vaşinton Bakı ilə əlavə investisiya layihələrinə və strateji sazişlərə imza ata bilər. Trampın ikinci dövründə Ermənistan və Azərbaycan arasında balanslı siyasət yürütməsi gözlənilir. O, ABŞ-ın regiondakı hərbi iştirakını artırmaq əvəzinə, daha çox diplomatik vasitələrlə rolunu gücləndirməyi seçə bilər. Tramp administrasiyası, həmçinin insan haqları və təhsil sahəsində əməkdaşlığı artıra bilər. ABŞ Azərbaycanda demokratik institutların inkişafını təşviq etmək və təhsil proqramlarında iştirakını genişləndirmək məqsədilə layihələr icra edə bilər. Bir sözlə, Amerika Birləşmiş Ştatlarının 47-ci prezidenti Donald Trampın ikinci hakimiyyət dövrü ABŞ-Azərbaycan əlaqələrinin yeni mərhələyə keçməsi üçün potensial imkanlar vəd edir.

Jalə QASIMZADƏ,
"Respublika".